TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

UOT 78.071.1

İmruz Əfəndiyeva
Sənətşünaslıq üzrə elmlər dokturu, professor
Əməkdar İncəsənət Xadimi
Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası
Ş.Bədəlbəyli küçəsi 98, AZ1014

UZUN İLLƏR ZƏHMƏTİN BƏHRƏSİ

Açar sözlər: *alim-musiqişünas, peşəkarlıq, dərsliklər, metodik tövsiyələr*

"Solo oxuma və opera kafedrasının dosenti, sənətşünaslıq namizədi Nərgiz Hüseynova – istedadlı alim – musiqişünas pedaqoq. Onun Azərbaycan dilində yazdığı dərsliklər, metodik vəsaitlər tələbələrin, müəllimlərin etibarını qazanıb. Ən dəyərli elmi jurnallarda onun məqalələri tez-tez çap edilir.

И.Эфендиева

ПЛОДЫ МНОГОЛЕТНЕЙ РАБОТЫ

Ключевые слова: *профессионализм, мастерство, современность, педагогические принципы*

Доцент, кандидата искусствоведения Наргиз Гусейнова – один из авторитетных и талантливых педагогов на вокальной кафедре. На азербайджанском языке создала ряд оригинальных методических работ, учебников. Пишет высокопрофессиональные статьи, опубликованные на страницах научных журналов.

I.Efendiyea

FRUITS OF MANY YEARS OF LABOR

Key word: *Musical study, proficiency, innovation, modernism, activity*

Nargiz Huseynova is a talented musicologist and an educator. She is one of the active teachers of the Baku Academy of Music named after Uzeyir Hajibeyov. She always decently participates at the all conducted conferences

(as well as in the Azerbaijan Union of Composers).

Bir çox dəyərli, gözəl elmi məqalələrin, oçerklərin həmçinin maraqlı metodik tövsiyələrin,bproqramların müəllifi olan istedadlı pedaqoq, bmusiqişünas-alim Nərgiz Hüseynova yeni kitabı ilə hamını sevindirdi. Aspirantların,bdoktorantlarının sırasında Nərgiz Hüseynova xüsusi yer tutur.Nə üçün? Ona görə ki,Nərgiz xanım ifaçılıqdan pillə-pillə musiqişünaslığın- daha doğrusu musiqi elminin sirlərini öyrənərək öz bacarığı və zəhməti ilə bütün sınaqlardan keçərək,müvəffəqiyyətlə yazdığı sanballı elmi işini müdafiə etdi,sənətşünaslıq üzrə fəlsəfə doktoru adına layiq görüldü.Hələ tələbəlik illərində N.Hüseynova nəzəri fənlərə ciddi yanaşırdı,daha çox harmoniyanı və musiqi əsərlərin təhlilini dərindən öyrənməyə çalışırdı.Hətta, biz - müəllimlər ona məsləhət verirdik ki,ikinci ixtisas kimi-musiqişünaslığı seçsin.

İllər keçdi... Nərgiz Akademiyamızın ifaçılıq fakültəsinin vokal şöbəsini uğurla bitirdi.Düşünürəm ki,Nərgiz xanım kafedrada yeganə insandır ki, bütün elmi-nəzəri və elmi praktiki konfranslarda müntəzəm olaraq çıxış edir.Üstəlik onun digər sənət ocaqlarında –Azərbaycan Bəstəkarlar İttifaqında, Ali məktəblərdə, kolleclərdə, Universitetlərdə çıxışları,həmçinin Nərgiz xanım vaxtaşırı olaraq "Musiqi dünyası","Mədəniyyət Az","Bakı Xoreqrafiya Akademiyası" və digər -"Musiqi elmi,mədəniyyət və təhsilin aktual problemləri" və s. jurnallarda elmi məqalələrini çap etdirir.

Beləliklə, bu kitabın yazılması,yaranması üçün müəyyən dərəcədə hazırlıq prosesi olmuşdur.

"Azərbaycanda opera ifaçılığı sənətinin inkişaf mərhələləri" kitabı musiqi mədəniyyətimizdə,musiqi tariximizdə ilk elmi-tədqiqat işidir.Bizim zəngin opera sənətimizin korifeyləri-bəstəkarları elə əsərlər yaratmışlar ki, həmin əsərlər bu gün də səhnəmizi bəzəyir və opera sənətini inkişaf edən,onu ucaldan bizim təkrarsız ifaçılarımızdır.

Müəllif kitabın "Giriş" bölməsində elmi işinin mahiyyətini peşəkarlıqla vurğulayır; həmin dövrü belə səciyyələndirir: "Bu dövr ərzində Azərbaycan operası böyük inkişaf yolu keçmiş,səhnəmiz bəstəkarların yaratdığı çoxsaylı müxtəlif təmayüllü,rəngarəng məzmunlu opera əsərləri ilə zənginləşmiş,opera ifaçıları yetişmişdir...milli opera ifaçılığı sənəti formalaşmış,vokal məktəbi yaranmışdır". (mənim qeydim-İ.Ə.)

"Giriş" bölməsində Nərgiz xanım həmçinin bu sahəyə aid bir neçə böyük bəstəkarlarımızın musiqişünas-alimlərimizin adlarını çəkir,onların elmi məqalələrini qeyd edir.İlk növbədə Ü.Hacıbəylinin,Q.Qarayevin sonra isə E.Abasovanın, L.Fərəcovanın- Məmmədova, L.Karagiçevanın ,Z.Səfərovanın, A.Tağızaənin, R.Zöhrabovun, F.Əliyevanın və b.Xüsusi olaraq Ə.Bədəlbəyli Q.Qasımovun kitabçası vurğulanır.

Həmin "Giriş" də X.Ağayevanın, S.Abdullayevanın, M.Dilbazinin, Ş.Mahmudovanın tədqiqatları qeyd olunur.

Görkəmli alim-teatrşünasların, rejissorların da dəyərli monoqrafiyaları

Azərbaycanın opera sənətinin inkişafında mühüm rolu açıqlanır.Bu baxımdan Məmməd Sadıx Əfəndiyevin,Mehdi Məmmədovun,Mərayim Fərzəlibəyov və bir çox bəstəkarların,alimlərin adları nəyinki giriş bölməsində,eləcə də bütün fəsillərdə çəkilir.Onların əsərlərindən lazım olan yerdə sitat gətirilir.Çox vaxtı hansı sa alimin fikrini N.Hüseynova ümumləşdırır,maraqlı nəticələrə gəlir.

Birinci fəsildə müəllif olduqca vacib mövzunu araşdırır: XX əsrin əvvələrində Azərbaycanda opera sənətinin tarixindən söhbət açılır.Müəllif burada ilk növbədə muğam operasının yaranması və onun milli mədəniyyətimizdə olan yüksək bədii estetik əhəmiyyətini vurğulayır.

Müəllif çox gözəl nəticəyə gəlir:"Lakin bu çox mürəkkəb bir dövr idi. XX əsrin əvvəllərindən başlayaraq, Azərbaycan operasının inkişaf yolları haqqında gedən diskusiyalar və mübahisələr bu dövrdə də davam edirdi.Hər halda 1920-ci illər opera sənətinin inkişafında yeni mərhələ kimi deyil,axtarış dövrü kimi dəyərləndirmək,bircə, daha məqsədəuyğun olardı".

1) N.Hüseynova Azərbaycanda opera ifaçılığı sənətinin inkişaf mərhələləri.Ali məktəblər üçün dərs vəsaiti-Bakı:Mütərcim 2014 Səh.3.

2) А.Бадалбейли,К.Касимов.Азербайджанский государственный ордена Ленина театр оперы и балета им.М.Ф.Ахундова-М. 1959.

3) Эфендиев М.С. Опера «Короглы» на сцене Театра оперы и балета им.М.Ф.Ахундова \\ журн Литературный Азербайджан, №5, 1937.

4) Əfəndiyev M.S.Proletar teatrosu uğrunda.B.Azərnəşr,1931-140 s.

5) M.Məmmədov.M.F.Axundov adına Opera və Balet teatrı // M.Məmmədov.Teatr düşüncələri.Bakı. işıq,1977,S.20-33

Б.И.Зейдман Опера и балет в Азербайджане // Азербайджанская музыка.Сборник статей. М.1961.

F.S.Əliyeva XX əsr Azərbaycan musiqisi tarix və zamanla üz-üzə. B.Elm, 2007.-S-314.

Müəllif ikinci fəsildə (Azərbaycanda milli vokal ifaçılığının inkişafı) olduqca vacib aktual problemə toxunur.Burada Nərgiz xanım ilk növbədə paralel olaraq iki məktəbin yaranmasını vurğulayır: Bülbül və Şövkət Məmmədova. Bizim fikrimizcə onların hər ikisi vokal məktəbin yaradıcısı hesab olunur.Bülbül parlaq,hamını valeh edən təkrarsız Koroğlu obrazını yaratdı və onun məktəbini davam edən Lütfiyar İmanov və digərləri bu obrazı məhz Bülbülün məktəbini səhnədə canlandırdılar.Nəyinki Koroğlu partiyası bir etalon oldu bizim yeni nəsil üçün, həmçinin xalq mahnılarının yeni oranjimanda,yəni Bülbülün traktovkasında-hamı üçün parlaq bir nümunə oldu.

Şövkət Məmmədovanın yaratdığı R.M.Qliyerin Şahsənəmin obrazı (eyniadlı operada) gözəl mükəmməl, dərin mənalı psixoloji obrazdır.Bu olduqca nümunəvi,qeyri-adi,müxtəlif rənglərlə parlayan ülvi obrazdır.Şövkət xanımın yaratdığı vokal məktəbi sonralar E.Quliyeva kimi müğənnilərin yaradıcılığında öz əksini tapmışdır.

Xüsusi olaraq müəllif bu fəsildə professor M.A.Kolotovanın fəaliyyətini vurğulayır. Bu dövrdə S.Aslanova,C.Qafarov,M.Bədirov,O.Kozlov və digərlərinin yaradıcılığı püxtələşir.

Kitabda xüsusi olaraq müəllif muğam operalarında milli vokal ifaçılığının səciyəvi xüsusiyyətlərinin formalaşmasını aydın görürük. Ümumiyyətlə müəllif bu problemi musiqi elmində ilk dəfə bacarıqla,məntiqlə,zövqlə araşdırır və müəyyən nəticələrə gəlir.Bizim diqqətimizi bir maraqlı fikir cəlb etdi:"Muğam operalarında solo muğam epizodlarının tarzən tərəfindən müşayiət olunması da ənənəvi muğam ifaçılığından fərqlənən cəhətlərə malikdir."Bəli, bu həqiqətdir.Nadir halda ifaçı-tarzən üçün muğamı iki üslubda çalmaq-çətindir və ifaçıdan yüksək sənətkarlıq tələb olunur.Yuxarıda qeyd etdiyimiz problemlər oz ifadəsini III-cü fəsildə tapmışdır.

Təbiidir ki, müəllif milli vokal ifaçılığının xüsusiyyətlərini müəyyənləşdirəndən sonra klassik tipli vokal ifaçılığı problemi araşdırır.(Bir neçə Azərbaycan operalarının musiqi dramaturqiyasının təhlili verilir).Misal üçün götürək, N.Hüseynovanın təhlil etdiyi "Şahsənəm" operasını. Müəllifin fikirləri qiymətli və obyektivdir: "Şahsənəm" operasının ilk Azərbaycanlı qadın müğənnısı Şövkət Məmmədovaya həsr olunması faktı da əhəmiyyətlidir,çünki bu artıq Azərbaycanda vokal ifaçılığı mədəniyyətini təsdiqləyən bir cəhətdir."Şahsənəm"

1) Qeyd olunmuş nəşr. Səh.23

2) Qeyd olunmuş nəşr. Səh.24

kimi kassik tipli bir operanın səhnəyə qoyulması,bir daha sübut etdi ki,Azərbaycan vokal ifaçılığı məktəbi vardır və bu məktəbin simasını Şövkət Məmmədova, Bülbül kimi görkəmli vokalçılar təmsil edir (mənim qeydim-İ.Ə) Biz düşünürük ki,o zaman rus sovet musiqi mədəniyyətini təmsil edən bəstəkarlar musiqişünaslar-alimlər bizim vokal ifaçılığı məktəbimizin yüksək peşəkarlığından, orjinallığından xəbərdardılar,məhz ona görə də, R.Qliyer Bakıya dəvət almışdı və Ş.Məmmədova ilə yaradıcılıq ünsiyyəti quraraq,opera üzərində işləməyə başladı.

Müəllif maraqlı nəticəyə gəlir: o hesab edir ki,"Şahsənəm" operası musiqi tariximizdə müəyyən keçid dövrü təşkil edir,klassik tipli milli operaların ortaya çıxması üçün bir təkan nöqtəsi oldu.

Həmin,VI-cü fəsildə,müəllif olduqca ətraflı Ü.Hacıbəylinin "Koroğlu", M.Maqomayevin "Nərgiz", Q.Qarayevin, və C.Hacıyevin "Vətən", Ə.Bədəlbəylinin "Nizami" operaları üzərində ətraflı araşdırma aparır. Fikrimcə,bu əsərlər yüksək professional səviyyədə bəstələnib və onları yenidən bərpa etmək lazımdır.

Fəslin ikinci yarısında F.Əmirovun "Sevil",V.Adıgözəlovun "Ölülər", R.Mustafayevin "Vaqif" və digərlərinin üzərində dayanır və onların musiqi tariximizdəki rolunu vurğulayır.

Kitabın V-ci, VI –ci fəsilləri bir vacib problemi gündəmə gətirir.XX-ci illərin sonu və XX –ci illərin əvvəlində klassik opera sənətinin gələcəyi Azərbaycanda opera janrına yenilik gətirən əsərlər: V.Adıgözəlovun "Natəvan" və F.Əlizadənin "İntizar"."Natəvan" –vətənpərvərlik ruhunda yazılan masştablı operadır. Bəstəkarın

vaxtilə dediyi kimi (intervyu zamanı) burada "Koroğlu" orepasının yüksək ənənələri öz təcəssümünü tapır, dinamik surətdə inkişaf edir. Əsərdə simfonik təfəkkürü, alətlərin dialoqu, tembr və səsin dramaturgiyası, özünəməxsusluğu, kino sənətinə səciyyəvi olan texniki üslublar (kadrların tez-tez dəyişməsi və s.) – bu amillər hamısı təsdiq olunur. Əsərdə bir neçə janrların qovuşması özünü biruzə verir: opera, oratoriya və kino sənətinə tipik olan "montaj dramaturgiyası"

F.Əlizadənin bu dövrdə yaratdığı iki əsərini qeyd etməliyik:"Ağ atlı haqqında əfsanə" və "Qarabağnamə" "İntizar" müasir musiqinin bədii-texniki vasitələrini yüksək professionallıqla təcəssüm edir."Qarabağnamə" operasının üç redaksiyası mövcuddur.

1) Qeyd olunmuş nəşr. Səh.39

2) Qeyd olunmuş nəşr. Səh.74

Düşünürük ki, V.Adıgözəlovun monimental "Natəvan" kompozisiyası (xatırladaq ki, bu əsərdə də Qarabağ mövzusu üstünlük kəsb edir) və F.Əlizadənin "Qarabağnamə" orerası tez-tez teatrımızda səslənməlidir.

Yuxarıda qeyd etdiyimiz iki opera-faktiki olaraq Azərbaycan musiqi tarixində novatorluğa malik əsərlərdir. Aydın məsələdir ki, bu əsərlər yeni ifaçılıq məktəbinin uğurlarını əks etdirməlidir. Xüsusi olaraq bu F.Əlizadənin çətin, mürəkkəb üslubunda yazdığı əsərə aiddir.

Baxın N.Hüseynovanın qarşısında neçə çətin məsələlər durmuşdu.Hamısını cavan tədqiqatçı peşəkarlıqla,məntiqlə həll edir. Kitabın "Nəticə" bölməsi olduqca vacib və aktual problemləri ümumləşdirir. Tədqiqatçı işi olduqca səmimi, aydın,oxunaqlı təmiz Azərbaycan dilində yazılıb. Bu dərs vəsaiti – müəllimlər, tədqiqatçılar və tələbələrimiz üçün sözün əsl mənasında hədiyyədir. Xalqın dili onun ruhudur.

N.Hüseynova – bacarıqlı, istedadlı olduqca məhsuldar, həmişə axtarışda olan alimdir. Biz onun yeni monoqrafiyalarını, kitablarını, elmi tədqiqatlarını səbirsizliklə gözləyirik.

ƏDƏBİYYAT

Məqalənin redaksiyaya daxil olma tarixi: 20.04.2018
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.06.2018
Məqalənin çapa qəbul olunma tarixi: 05.07.2018
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə elmlər doktoru, professor Oqtay Rəcəbov
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.